Qarabağ Azərbaycanın döyünən ürəyidir.

Azərbaycanı Qarabağsız təsəvvür etmək olmurdu. Azərbaycan Respublikası ikinici dəfə müstəqillik əldə etdikdən sonra prezidentimiz cənab İlham Əliyev dünya təşkilatlarına, ərazi bütövlüyümüzü, müstəqilliyimizi anti-ermənistanın yaratdığı qırğın və faşizmi çıxışları ilə bildirmişdir. BMT təşkilatı qəbul etdiyi qərarları ilə heç bir ciddi şəkildə əməl etmədi və kağız üzərində qaldı.

Həmişə Ilham Əliyev öz hümanistliyini göstərərək düşməni sülhə dəvət edirdi. Amma mənfur düşmən öz xain əməllərindən əl çəkmirdi. Cənab İlham Əliyev dünya tribunalarındakı çıxışlarında bildirdi ki, Qarabağ Azərbaycanın əzəli bölünməz torpağıdır.

Ermənistan Azərbaycan dövlətinə qarşı dəfələrlə atəşkəs rejimini pozub. Buna baxmayaraq Azərbaycanın müzəffər ordusu əks hücuma keçib düşmənə layiqincə cavabn verdilər.

Ali Baş Komandanımız cənab İlham Əliyevin uğurlu siyasəti nəticəisndə ordumuza böyük vəsaitlər xərcləyib və ordumuzu müasir silahlarla və texnikalarla təmin edib. Həmçinin Azərbaycan Respublikasının ordusunun əsgərlərinin müəyyən xarici ölkələrdə hərbi təlimlər keçirməyə və döyüş taktikalarına, müasir silahlarla davranışına öyrənmək üçün şərait yaradaraq hərbi təlimlərə cəlb edilmişdir.

2020-ci il 27 sentyabr səhər saatlarında ermənistan silahlı qüvvələri genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada Azərbaycan ordusunun mövqelərinə və yaşayış məntəqələrinə iriçaplı silahlar, minaatanlarla intensiv atəşə tutması nəticəsində ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq mülki əhalinin təhlükəsizliyi üçün Azərbaycan ordusu əks hücuma başladı. Ermənistan ordusu Azərbaycanın rəşadətli ordusunun hücumlarının qarşısında tab gətirə bilməyərək səfərbərlik elan etdi.

Ali Baş Komandanımız cənab İlham Əliyev 28 sentyabr qismən səfərbərlik elan etdi. Bununla ikinci Qarabağ müharibəsi üçün zəmin yarandı. Prezidentimiz cənab Ilham Əliyev öz çıxışlarında həmişə bildirdi ki, Azərbaycanın ordusunun qarşısında erməni ordusu tab gətirə bilməz. Hər bir çıxışında xalqa müraciətind bildirdi ki, “Qarabağ Azərbaycandır!”. Ali Baş Komandanımız cənab İlham Əliyevin başçılığı ilə Azərbaycan ordusu Ermənistan ordusuna müxtəlif mövqelərdə sıçrayış edərək düşmənin ordusunu darmadağın edirdi. Müzəffər ordumuzun hər gün qələbə çalmasının Ali Baş Komandanımızı cə xalqı sevindirdi.

Bizə bu şad xəbəri Ali baş Komandanımzı İlham Əliyev tərəfindən xalqa müraciətində bildirəndə bir tərəfdən sevinc baxışı, bir tərəfdən verilən şəhidlərə görə kövrəldik. Davam edən vətən müharibəsi 4 oktyabr Cəbrayıl, 17 oktyabr füzuli, 20 oktyabr Zəngilan, 25 oktyabr Qubadlı və 8 noyabr Şuşa şəhəri müzəffər ordumuz tərəfindən 27 ildən sonra işğaldan azad edildi. Ermənistan ordusu müzəffər ordumuzun qarşısında tab gətirə bilməyərək mülki vətəndaşlarımızın obyektlərini, evləri və qədim şəhərlərimizi hədəfə tuturdu. Bunlara misal olaraq Gəncə, Bərdə, Mingəçevir və sair kimi şəhərlərimizi müharibə zamanı qadağan olunmuş iriçaplı silahlarla hədəfə alaraq 100 nəfər mülki şəxs həlak olub və 416 nəfər yaralanmışdır. Xeyli azyaşlı uşaq həlak olmuşdur. Və bəziləri valideynlərini itirmişdir. Bu da Ermənistanın necə bir faşist ölkə olmasını sübut etdi. Ali baş komandanımız İlham Əliyev öz hümasnitliyini göstərərək yenə də sülhə çağıraraq 10 oktyabr müvəqqəti humanist atəşkəs elan etdi. Buna baxmayaraq mənfur faşist Ermənistan atəşkəsə əməl etməyərək yenidən atəşə tutdular.

Rəşadətli şanlı ordumuz düşmənin qarşısını alaraq əks hücuma keçərək, şanlı qələbəmizi qazandı. Müzəffər ordumuz hər gün bir neçə kəndimizi və şəhərimizi azad edirdilər. Buna tab gətirə bilməyən düşmən artıq təslim oldu. 10 noyabr Rusiya prezidenti və Azərbaycan Prezidenti aralarında sənəd imzaladılar. Bununla Azərbaycanın əzəli torpaqları sahibinə çatdı. əlbəttə igid oğullarımız öz canı və qanı bahasına torpaqlarımızı azad etdilər.

44 günlük vətən müharibəsində 2783 nəfər şəhid, 100 nəfər itkin və 1245 nəfər qazimiz oldu. Beləliklə deyə bilərəm ki, torpaq su ilə qarışsa palçıq, qan ilə qarışsa vətən olur.

Şəhidlərimizlə qürur duyuruq, qarşısında baş əyirik və bizim müqəddəs and yerimizdir. Bu şanlı qələbəmizi Ali Baş Komandanımız İlham Əliyevə, şəhidlərimizə və müzəffər ordumuza borcluyuq. Heç vaxt borcumuzu qaytara bilmərik. Fəxr edirəm ki mən Azərbaycanlıyam.

Ali Baş Komandanımızın sərəncamı ilə 4 dekabr 12:00-da şəhidlərimizi bir dəqiqəlik sükutla yad etdik. 10 dekabr isə Ali Baş Komandanımızın imzaladığı sərəncama əsasən hərbi parad keçirildi. Sərəncama əsasən hər il 8 noyabr Zəfər Bayramımızı qeyd edərik.

Birinci və ikinci vətən müharibəsində kəndimizin igid və mərd oğulları cəbhədə döyüşlərdə qəhrəmanlıq və böyük şücayət göstərdilər. I Qarabağ müharibəsində kəndimizdən 4 igid qəhrəmanlıq göstərərək müqəddəs şəhidlik zirvəsinə ucalıblar.

Əmim oğlu Quliyev Cəmil Fərəməz oğlu 1973-cü il mart ayının 9-da Bakı şəhəri, Nəsimi rayonunda anadan olmuşdur. 1991-ci ildə 20 yanvar hadisəsində böyük şücayət göstərmişdir. 1993-cü il oktyabr ayının 16-da Füzuli rayonunun Divarnılar kəndi yaxınlığındakı yüksəkliy uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olmuşdur.

Dövlətov Aqşin Tarverdi oğlu 15.06.1974-cü il tarixində Lerik rayonunun Soru kəndində anadan olmuşdur. 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Veysəlov Sərdar Extiyar oğlu 1974-cü ildə Lerik rayonunun Soru kəndində anadan olmuşdur. 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Cəfərov Təhsin Almas oğlu 17.11.1973-cü ildə Lerik rayonunun Soru kəndində anadan olmuşdur. 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Səfərov Elvin Ramiz oğlu 1989-cu il 10 dekabr tarixində Lerik rayon Soru kəndində anadan olmuşdur. 2010-cu ildə atası, 2016-cı ildə anası vəfat edib. Subay idi. Qatıldığı yarışlarda MDB üzrə snayper olaraq birinci yeri tutub. 2016-cı il aprel döyüşləri iştirakçısı olmuşdur. XTQ-nin Dəniz Piyadası SAT miçman rütbəli qəhrəmanımız 31 oktyabr 2020-ci il tarixində Vətən Müharibəsinin Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olmuşdur.

Şəhid Səfərov Elvin Ramiz oğlu sağlığında "Hərbi Xidmətdə Fərqlənməyə Görə" 3-cü dərəcəli medalı "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubileyi medalına laiq görülmüşdür.

Prezidentimiz cənab İlham Əliyevin sərəncamı ilə şəhid Elvin Ramiz oğlu Səfərov ölümnüdən sonra "Vətən uğrunda" medalı və "Qarabağ ordeni" ilə təltif olunmuşdur. Şəhid Elvin Səfərov bir neçə xarici ölkələrdə hərbi təlimlərə və yarışlara qatılaraq medallara laiq görülmüşdür. Həmçinin "Cəbrayılın azad olmasına görə", "Füzulinin azad olmasına görə" və "Xocavəndin azad olmasına görə" medalları ilə təltif edilmişdir.

Şəhid Dövlətzadə İsgəndər Vüqar oğlu 24.09.1992-ci ildə Lerik rayonunun Soru kəndində anadan olmuşdur. 2009-cu ildə Bakı şəhəri 313 nömrəli məktəbin 9-cu sinifini bitirdikdən sonra Bakı şəhər Rabitə və Nəqliyyat Kollecinə daxil olmuşdur. Kolleci bitirdikdən sonra 2013-cü ildə Milli Ordu sıralarına qoşularaq həqiqi hərbi xidmətə getmişdir. Hərbi xidmətini bitirdikdən sonra 2016-cı ilin oktyabr ayında könüllü olaraq Milli Ordu sıralarında gizir kimi xidmət etməyə başlayıb. 2020-ci ilin sentyabr ayında Füzuli bölgəsinə gedib. Oktyabr ayının 30-da gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Prezident İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilmişdir. Şəhadətindən 33 gün sonra şəhidimizin atası Vüqar əmi övlad acısına dözməyərk dünyasını dəyişdi. Şəhidimizin bir övladı var.

Şəhid DSX zabiti Leytenant Abbasov Murtuz Çingiz oğlu 2 noyabr 1998-ci ildə Lerik rayonun Soru kəndində anadan olmuşdur. Qarabağ uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmişdir. 29 oktyabr tarixində Zəngilan rayonunun Mincivan qəsəbəsi istiqamətində gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalmışdır. Prezident İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.

44 günlük Vətən müharibəsində kəndimizin igid mərd oğulları döyüşlərdə qərəmancasına düşmənlə mübarizə aparmışlar. Düşmən igidlərimizin qarşısında tab gətirə bilmədi və məğlubiyyətlə razılaşdı.

Fəxr edirik, qürur duyuruq.

Biz bu tarixi zəfər qələbəmizi şəhidlərimizin qanı bahasına əldə etdik. Biz bu qələbəni şəhidlərə və qazilərə borcluyuq

Şəhidlər ölməz, vətən bölünməz!

Yaşasın Azərbaycan Xalqı!

Yaşasın Ali Baş Komandanımız. !

Yaşasın Azərbaycan Ordusu!

Yaşasın Müqəddəs Vətənimiz!

Qarabağ Azərbaycandır!